FAKT 10

Uşaqlar psixoloji və fizioloji cəhətdən böyüklərdən fərqlidir. Aldıqları yardımın keyfiyyəti və növü onların qəzadan sonra ümumi reabilitasiyasına və cəmiyyətin tam dəyərli bir üzvü kimi yaşamasına təsir göstərə bilər.

UNUTMAYIN !

YOLLARIN TƏHLÜKƏSİZ OLMASI HƏR BİRİMİZDƏN ASILIDIR.

ÖZÜNÜN VƏ BAŞQALARININ HƏYATI İLƏ OYNAMA !

TƏHLÜKƏSİZ HƏRƏKƏT ET !

Bukletdə dərc olunan məlumatlar Ümumdünya Səhiyyə Təşkilatının rəsmi saytındakı məlumatlarına əsaslanır.

Buklet Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzində hazırlanmışdır.

Bakı, Az1122, Zərdabi küç.,96
Tel.: 431-12-72, Faks: 430-52-85
office@isim.az www.isim.az

İCTİMAİ SƏHİYYƏ VƏ İSLAHATLAR MƏRKƏZİ

Yaradıcı Gənclər Assosiasiyası

YOL HƏRƏKƏTİ TƏHLÜKƏSİZLİYİNİN TƏMİN EDİLMƏSİ ÜZRƏ ONİLLİK FƏALİYYƏT PLANI 2011-2020

SƏRXOŞ SÜRMƏ, KƏMƏRİ TAX, SÜRƏTİ AŞMA, YOLUNA BAX!

YOL HƏRƏKƏTİ TƏHLÜKƏSİZLİYİ VƏ GƏNCLƏR BARƏDƏ 10 FAKT

YOL-NƏQLİYYAT QƏZALARI DÜNYADA 10-24 YAŞLI İNSANLARIN ƏSAS ÖLÜM SƏBƏBLƏRİNDƏN BİRİDİR. HƏR İL 25 YAŞADƏK 400 000 GƏNC YOL-NƏQLİYYAT QƏZALARI ZAMANI DÜNYASINI DƏYİŞİR Kİ, BU DA GÜNDƏ TƏXMİNƏN 1000 NƏFƏR DEMƏKDİR.

Əksər ölüm halları gəliri aşagı və orta səviyyədə olan ölkələrin payına düşür. daha çox qəzaya uğrayanlar yol hərəkətinin ən zəif iştirakçıları, yəni piyadalar, velosipedçilər, motosikletçilər və nəqliyyat sərnişinləri olur.

2012-CI IL ƏRZINDƏ RESPUBLIKA ƏRAZISINDƏ 2892 YOL NƏQLİYYAT HADİSƏSI QEYDƏ ALINMIŞ, NƏTICƏDƏ 1168 NƏFƏR HƏLAK OLMUŞ, 2997 NƏFƏR YARALANMIŞDIR. ÖTƏN ILLƏ MÜQAYISƏDƏ HƏLAK OLANLARIN SAYI 15% ARTMIŞDIR.

Yollarda baş verən qəzalar ictimai səhiyyə problemi olaraq cəmiyyətin bütün sektorlarına təsir edir. Yol-nəqliyyat qəzaları nəticəsində baş verən travmatizmin iqtisadi nəticələri uzun müddətli tibbi yardıma yönəldilən xərclərə, işləyən ailə üzvünün ölümünə və əlillik nəticəsində gəlirlərin azalmasına gətirib çıxarır ki, bu da ümumiyyətlə gəliri aşağı və orta səviyyədə olan bir çox ölkələrdə ailələrin yoxsul olmasına şərait yaradır. Bu xərclər adətən ölkənin ümumdaxili məhsulunun 1-2,5%-ni təşkil edir və gəliri aşağı və orta səviyyədə olan ölkələrdə bu xərclər ildə 65 milyon ABŞ dollarına çatır.

FAKT 1

Hər gün yol-nəqliyyat qəzalarında 25 yaşadək 1000 uşaq və gənc həlak olur. Yol-nəqliyyat qəzaları nəticəsində alınan zədələr 10-24 yaşlı insanların əsas ölüm səbəblərindən biridir.

FAKT 2

Gəliri aşagı və orta səviyyədə olan ölkələrdə yol qəzalarında həlak olan və ya travma alan əksər gənclər piyada, velosipedçi, motosikletçi ya da nəqliyyat sərnişinləri olur. Gəliri yüksək səviyyədə olan ölkələrdə isə yol-nəqliyyat qəzalarının qurbanları əsasən nəqliyyat vasitələrini yeni idarə etməyə başlayan sürücülərdir.

FAKT 3

Yolların tikilməsi və yol hərəkəti təhlükəsizliyinin planlaşdırılması zamanı, bu sahədə siyasəti müəyyənləşdirən şəxslər uşaqların acizliyini, onların nisbi təcrübəsizliyini, fərqli inkişafını, eləcə də oynamaq və təhlükəsiz hərəkət etmək tələbatlarını nəzərə almalıdır.

FAKT 4

Kişi sürücülər arasında ən çox yayılmış yol hərəkəti qaydalarının pozulması kimi sürətin artırılması 1/3 hallarda bütün yol-nəqliyyat qəzalarının səbəbi olur. Bəzi ölkələrdə fərqli sürücülük vəsiqələri sistemi nəqliyyat vasitələrini yeni idarə etməyə başlayan sürücülərə sürətli yollarda hərəkət etməyi qadağan edir.

FAKT 5

Spirtli içkilərin qəbul edilməsi yol-nəqliyyat qəzaları riskini dəfələrlə artırır. Nəqliyyat vasitəsinin spirtli içkilərin təsiri altında idarə olunmasına yol verilməməlidir.

FAKT 6

Motosiklet qəzaları zamanı baş və beyin zədələnmələrinin, ölüm hallarının azaldılması üçün ən effektiv üsul dəbilqələrin (şlem) başa taxılmasıdır.

FAKT 7

Düzgün istifadə olunan təhlükəsizlik kəmərləri qəza zamanı ölüm riskini 61% azaldır.

FAKT 8

Uşaqlar üçün xüsusi oturacaqların istifadəsi yol qəzaları zamanı uşaq ölümünü 35%-dək azalda bilər.

FAKT 9

Piyadalar və velosipedçilərin parlaq və ya işığı əks etdirən geyimi onları qaranlıq vaxtı daha görünən edir və qəzaların qarşısının alınmasında kömək edir.